

BİR HEKAYƏ, BİR MÜŞAHİDƏ

**Yelda ÖZSUNAR**

# İFLİC

Tibb fakultəsi tələbələrinə iflic dərsini anladırdım: "Hamımızın ətrafında iflic olmuş insanlar var. Hər şey birdən-birə, dəqiqələr içində baş verir. Beyində bir damar anidən tıxanır və ya damardan qanaxma olur, beyin fövqəladə bir vəziyyət arasında bir müddət öz təsir mexanizmlərini dayandırır. Bu vəziyyət eynilə bir zəlzələyə bənzəyir".

Ağlım bu səhər radio xəbərlərində eşitdiyim Çanaqqala zəlzələsindəydi. Tələbələr sakit və düşüncəliydilər mənim kimi: "Görəsən, evlərinə girə bilməyən insanlar nə edirlər? Ya daha böyük zəlzələ olarsa?.."

Ağlımdan keçib gedən fikirləri qovub, dərsimi keçməliydim, davam etdim: "İflicdən dərhal sonra immun sistemi hüceyrələri dərhal zəlzələ sahəsinə gələn yardımçı qruplar halında təmizləmə və təmir işlərinə başlayırlar. Beyin bir anda dalğalanır, vəziyyət daha pis görünür. Bir neçə gün keçdikdən sonra təmizləmə və xilasetmə qrupları işlərini bitirirlər. Sonra həyat yavaş-yavaş normallaşmağa başlayır. İmmunitet hüceyrələri kənara çəkilir. İndi artıq növbə beyinin özünü bərpa edib, fəaliyyət göstərməsinə çatır. Beyin " plastisite" deyilən bir xüsusiyyəti sayəsində sürətlə, var gücüylə qismən də olsa, öz fəaliyyətini təmin edərək, yaxşılaşdırmağa çalışır. Həyat davam edir, əvvəlkindən bir az fərqli olsa da…"

İlk dərs qurtardı, fasilə verdik. Çay içməyə getdim, tələbələr bayıra çıxdılar. Yeməkxanada bir mən, bir də Filiz adlı tələbədən başqa heç kim yox idi. Salamlaşdıq. Hərəmiz öz masamızda oturduq. Divarda yuxarıdan asılmış televiziorda xəbərlər proqramında terrordan və zəlzələdən məlumat verirdilər. Mən çayımı içərkən bir küncdə büzüşmüş Filizin qayğı ilə televizora baxdığını gördüm. Yanaqlarından yaş süzülürdü. Qalxıb yanına getdim. Əlimi kürəyinə qoyub yanında oturdum. Göz yaşlarını saxlaya bilmədi: – "Müəllimə, ağlım Çanaqqaladakı ailəmizdə. Onlara bir şey olar, birdən zəlzələ çox davam edər… Onları itirməkdən qorxuram. Bu düşüncələrdən qurtula blmirəm, fikrimi dərsə yönəldəmmirəm. Qəlbim çox narahatdır. İçimdən ağlamaq gəlir". Əlini tutaraq, "İçindən nə gəlir, onu da et" – dedim. – Amma əvvəlcə özünə, bədəninə diqqət göstər. Onu sakitləşdir. Təkrarlanan qorxulu düşüncələr sənin enerjini və bədənini tükəndirir. Onların üzərinə gedəndə, beynində qorxu düşüncələrini artırarsan və bir müddət sonra dözülməz bir vəziyyətə düşərsən...

Beyin həssaslıqla diqqət göstərməsi üçün sabit bir qabiliyyətə malikdir. Sən mənfi, qorxunc fikirləri düşündüyün müddətdə bu düşüncələrin əksi olan gözəl düşüncələri gətir ağlına.

Ötən gün mən Mərmərə zəlzələsində 48 saat ərzində yerin altında qalan, həyat yoldaşını və bir uşağını itirən atanın hekayəsini bir jurnalda oxudum. Ata yaralanmasına baxmayaraq, yanında köməksiz qalan beş yaşındakı qızına görə həyat gücü qazanaraq, yenilməz arzu ilə yerin altından və ölümdən necə xilas olduğunu anladırdı.

O, şüur gəmisi üzərində nəzarət etdi və qı-

zını təkbaşına buraxmamaq üçün qorxularına müqavimət göstərdi. Sevginin və şəfqətin gücü onu həyata bağladı. Sən də o ata kimi, öz gəminin sükanını möhkəm saxla. Yaxınlarına olan sevgin səni qorxulara doğru deyil, ağıllı olmağa, qərarlı və qətiyyətli olmağa tərəf aparsın. Düşüncələrinə nəzarət et, gözəl şeylərə yönəlt. Vücud düşüncələri gerçəklər kimi qəbul edir. Canına acı yaşatma. Həm də unutma, bütün acılar öyrənmək və dəyişmək üçündür. Lənətləmək və üzülmək üçün deyil. Cahil toplumlar işləmək əvəzinə, durmadan bir-birlərini günahlandırar və dalaşarlar. Savadlı və ağıllı insanlarsa çözüm axtararlar. İnsanlar vəbanı yüz illərcə lənətləmiş, acılar çəkmişlər, ta ki elm və ağıl vəbanın dərmanını, peyvəndini kəşf edənə qədər. Biz də dəyişmək, uyğunlaşmaq, ağıl və elm yolunu tapmaq üçün bunları yaşayırıq. Daha yaxşısını etmək və inkişaf üçün. Unutma ki, heç bir həqiqət sənin beynində yaşadıb böyütdüyün qorxulardan daha qorxunc deyil. Düşüncələr və xəyal gücü bütün qorxuları şişirdir. Dayan, sənə bir uşaqlıq xatirəmi anladım: “Mən kiçik ikən peyvəndlər məktəblərdə aparılırdı. Doktor və tibb bacıları rəsmi maşınlarda, əllərində böyük çantalarla məktəbə gələndə, bütün məktəbi başdan-başa bir qorxu bürüyürdü. Siniflərdə tit-tir titrəyərək, bir qismimiz də iynə qorxusundan için-için ağlayaraq peyvənd növbəmizi gözləyərdik. Birdən sinfə ağ xalatlılar girəndə uşaqlar gizlənməyə yer axtararkən, müəllimlər qolumuzdan tutur, ağ xalatlı isə iynəni vururdu. Mən peyvənd növbəmi gözləyərkən, başıma gələcək qorxunc iynə fəlakətini qəbul etməkdən başqa ayrı çarə tapammadım. Axırda növbə mənə çatdı. Ağ xalatlı iynəni qoluma batırdı. Milçək sancmasından başqa bir şey hiss etmədim.

– Elə bu qədərmi? – deyə soruşdum.

– Bəli, bu qədər, – dedilər.

Üstəlik, iynə də heç sandığım qədər böyük deyildi. Gerçəyin özü, beynimin içində yaşatdığım xəyal gücümdən, içimdə böyütdüyüm qorxulardan daha xəfif imiş. Əslində iynə vurulana qədər olan ağrılar, iynənin gerçək ağrısından daha böyükmüş”.

Gülüşərək masamızdan qalxdıq. Bir az dərsə gecikdik, amma duyğuları bölmənin, anlatmanın verdiyi rahatlıq duyğusu ilə ikimiz də sakitləşmişdik.

Artıq işimizə başlamışdıq. Özümüzü və dünyamızı yaxşılaşdırıb, gözəlləşdirməyə və anlatmağa davam edərək.

## KEÇİLƏRİ KEÇMƏYƏN EV

Günlərin birində canım təbii keçi südü istədi. Marketlərdə satılan markalı südləri heç sevmirəm. Evimin arxasındakı boş ərazidə otlayan keçilərin və bir çobanın arxasınca gedərək, onları təqib etdim. Məni sürükləyən kompası qeyd-şərtsiz izləyirdim.

Çoban öndə, keçilər ortada, mən də arxada. Məhəllənin uzaq bir yerində həbsxana avtomobilləri, polis nəqliyyatı və ambulansların tez-tez ziyarət etdiyi bir gecəqondu məhəlləsinə gəlib çıxdıq.

Bu məhəllə və küçədəki uşaqlar çox yoxsul görünürdülər. Yollar ağacsız, səkilər tozlu… Yenə də küçələr maraqlı qadınlar və uşaqlarla dolu idi. Uşaqlar başıma yığışdılar. Mən gözdən itən keçiləri və sahibini soruşdum:

– Siddik əminimi deyirsən? O əlil uşaqları və keçiləri olan Siddik. Bu məhəllədə ancaq onun keçiləri var.



Uşaqlarla topalaşıb əyri-üyrü bir küçəyə getdik. Rəngsiz, paslı dəmir qapısı olan bir evə çatdıq. Evin damında bir qadın gördüm, – arvadıdır, – deyə düşündüm. Başımı qaldırıb, bu tülbəndli qadına səsləndim:

– Keçi südü varmı?

Qadın tez cavab verdi :

– Yoxdu.

Təkrar soruşdum:

– Nə zaman olacaq? Adınız nədir?

Bu arada, kiçik pəncərənin barmaqlıqları arasında qıyıq gözlü, ağızları açıq, saçları qıvırcıq iki qız, bir oğlan uşağı maraqla baxırdı. Qızların qolları bir-birinə bitişik idi. Mənimlə danışmağa çalışırdılar, gülümsəyərək. "Süd yoxdu" – sözüylə, yəqin, mənim üzümdə xəyal qırıqlığı ifadəsi yarandı ki, qızlardan biri gözdən itərək, əlində bir süd şüşəsi pəncərədə göründü. İçi süd dolu plastik qabı mənə uzatdı. Danışa bilməsə də, əlil olmasına baxmayaraq, cəhd edib, ürəyindəki saflıqla məni məmnun etmək istəyirdi.

Damdakı anaya şüşəni göstərərək, – "hanı, bəs deyirdin yoxdu?" – deyə soruşdum.

Qızlar için-için gülürdülər, sanki analarından intiqam alırdılar. Ana, – bir şüşə bəs edərdimi? – deyə soruşdu.

Mən – hə, bəs edər, bəs edər, – deyə, rahat bir səslə dilləndim.

Soruşmadan gedəmməzdim:

– Uşaqlarının üçü də əlil. Yoxsa qohumsunuzmu yoldaşınızla?

Qadın səsləndi: "Xala uşaqlarıyıq…"

Hmmm…. İndi anladım. Əlil qızın anasına olan şüuraltı qəzəbi təbiətin qanunlarına əks olduğundanmı qaynaqlanırdı yoxsa?

Bir neçə il əvvəl universitetdəki müəllimimin dediyi sözləri xatırlayıram: "Yaxın qohumla evlilik genetik xəstəliklər yaranması riski deməkdir".

Təbiət dadlandıqca gözəlləşir. Bacarıq, mükəmməllik və gözəllik gətirir. DNT – dəki genetik kodlar dadlanmadıqca intiqam alır buna səbəb olanlardan. Yaxın qohum evlilikləri, savadsızlığın qədər, adət-ənənə dediyi və təbiətin əksinə işləyən seçimləriylə həyatı çiləyə döndərir. Yenə də təbiət digər insanların əlil dediyi məhsullarına saflıq, yaxşılıq etmək hissi və onu paylaşmaq məziyyətlərini verir. Təmiz irq təbliğatı aparan siyasətçilərə də bir-birimizə nə qədər qarışa bilməyimiz qədər yaxşı dərs verir.

## YARA



Yolda gəzərkən, yaddaşımın fotoqrafı birdən-birə bir mənzərə ilə rastlaşdı. 30 yaşlarında ər-arvad olduğunu düşündüyüm iki nəfər bir-birlərinə qəzəblə qışqırırdılar. Qadın uşağı yanına çəkirdi. Onlar ara vermədən bir-birini təhdid edirdilər. Maraqlı nəzərlərlə onları izləyənləri heç eyinlərinə almırdılar. Təhdidlər qulaqlara güllə kimi dəyirdi.

Gözüm onların yanındakı təxminən 10 yaşında olan uşağa sataşdı. Onun beyninin içini görmək üçün gözlərinə baxdım. Gözləri hüznlü, səssiz, qayğılı idi. Məlum idi ki, utanır və qorxurdu. Ana və atasının bir- birinə hücum etmə yarışındakı səs tonu, daha öncə də yaşadığı dadsız mənzərələri canlandırırdı gözündə. Kim bilir, içində nələr qırılır, nə fırtınalar qopurdu. Ümid və güvən ayrılıb uzaqlara gedirdi. Uşağın hüznü qəlbimə doldu. Hüzn köpüyünü alıb ürəyimə götürdüm, gözləri ağlımdan heç çıxmadı.

Sevgisizlik və zülm uşağın qanadını qırır. Ürəyini dağlayır, həyata üsyan edən, gözəlliyi tanımayan və hirsi təqlid edən bir varlığa çevrilir. Təbiətin verdiyi bəyaz səhifəsi ləkələnir…

İllər keçir. Uşaq böyüyür. Bir həkimin qarşısına gəlib deyir: "Tünlük məni qorxudur. Boğazım acışır, üzüm qızarır, tanımadığım in-

sanlar belə olsa, tünlükdə birdən-birə soyuq tər tökürəm. Mədəm bulanır, başım gicəllənir. Tək düşünə bildiyim şey, çox adam olan yerdən qaçmaq olur".

Həkim bilir, beynin ən məhrəm künclərində gizlənmiş, basdırdığı, şüurunda xatırlamadığı, tünlükdə vurulan, heç unuda bilmədiyi utanma və qorxu duyğusunun bugünkü panikatağın qaynağı olduğunu. Yaddaşda qalmış bir neçə şəkil ilə bədəninə yayılan qaçma duyğusunun keçmişdən gətirilən və şüuraltında yer alan bu şərtlərin sürətlə bədənə yayıldığını anlayır...

## GÖYLƏRDƏKİ VƏ YERLƏRDƏKİ QORXUSUZLAR

Zəfər adlı bir pilot dənizə çox yaxın olan bir şəhərdən quş kimi havalanıb göy üzünə qalxır. O, təyyarənin böyük pəncərəsindən görünən günəşin parlaq şüaları dağları çəhrayı rəngə boyayanda, betonlar içində həbs edilmiş şəhərdən uzaqlaşır. İrəlidə dağlar başlayır. Tünd yaşıl dağlar şam meşələri ilə örtülüb. Zirvələrdən axan su… aralarda torpaq yollar, göllər və dərələr. Anadolu yuxarıdan baxanda sirli-sehrli bir tabloya bənzəyir.

Pilot Zəfər yenidən həyəcanlanır. Qorxusuz ürəyi gözəlliyin heyrətilə coşub-daşır. Birdən gözlərinə dağların ətəklərinə doğru uzanan bir parıltı dəyir. Qızılı təpələr bir bağa bənzəyir. Yanında da yalnız kiçik kirəmitli, bacası tustülü, dumanlı bir ev.

Təyyarə dağlardan və kəndlərdən uzaqlaşır, amma dağların və o kiçik evin xəyalı pilot Zəfərin ağlında ilişib qalır. Təyyarə o şəhərdən bu şəhərə uçarkən onun gözü hey o yalnız evi arayır. Əcəba, onun içində hansı yalnız çılğın biri yaşayır? Qərar verir ki, bir həftə sonra avtomobilinə oturub, o kiçik evə gedəcək. İçində yaşayan hər kimsə, onu tapacaq.

Bir bazar səhər tezdən yola çıxır. Yola pendir, smit götürür. Uzun və incə kənd yollarını aşıb dağlara üz tutur. Nar bağçaları, üzüm bağları, quzular, inəklər yoluna çıxa-çıxa irəliləyir. Az gedir, çox gedir, sonunda o tənha evə çatır. Sabahın sərinliyində sevincli quş civiltiləri yol göstərərkən, özünü birdən o kiçik evin qapısında görür. Yenə evin bacasından buludlara doğru tüstü yüksəlirdi.

Yüksək səslə soruşur:

– Kimsə yoxmu?

Qapının önündə yatan pişik balası bir gözünü aralayıb ona baxdı və heç halını pozmadan yatmağa davam etdi. Qapının yanından asılmış Atatürkün portreti ona baxırdı. Uzaqdan üstünə sevinclə bir it gəldi. Quyruğunu bulayıb başını ona uzatdı, sanki "Məni əzizlə" deyirdi. Birdən evin qapısı aralandı, qalın kürk geyinmiş yaşlı bir kişi çıxdı:

– Buyur, – dedi, – sən kimsən, nə istəyirsən?

Pilot nədən gəldiyini anlatdı. Bu evlə maraqlandığını, kimin yaşadığını öyrənmək istədiyini söylədi.

Yaşlı adam – Mən Təhsinəm, – dedi. "Sən bir Tanrı qonağı olaraq, mənim üçün gəldin, buyur, keç içəriyə. Sobam yanır, çayım da hazır-



dı. Pilot bu dəvətə heç çaşmadı... İçində pendir və smit olan torbanı kişiyə uzadaraq, ohh, – deyib, sobanın yanında oturdu. Pəncərədən qızılı yarpaqların arasından sallanan qara salxım üzümlərə baxa-baxa, bu yaşlı adamla söhbətə başladı. Təhsin kişi ondan nə işlə məşğul olduğunu soruşdu. Pilot: "Mən bu təpələrdən gəlib keçən təyyarələrin pilotuyam" – dedi.

Təhsin kişi dedi:

– Oy, sən bu yüksəkdən düşməkdən qorxmursanmı?..

Pilot da cavabında "Bəs sən belə yalnız, təkbaşına yaşamağa qorxmursanmı? Buralarda yalnız başına nə edirsən, neçə yaşındasan? Anlat mənə".

Təhsin kişi gülümsədi:

– Yüzü çoxdan keçmişəm, yəqin. Bu bağı, bağçanı mən saldım. İllərimi verdim. Uşaqlarım kimidir bu heyvalar, ora-bura qaçan köpəyim. Allahdan başqa kimsədən qorxum yoxdur. Quyunun suyundan içib, üzümümdən yeyirəm. Xəstə olanda da sağalıram. Mən kimsəyə kölə olmaram, şəhərlərə məhkum ola bilmərəm, üzümə maska taxıb, acgözlərin arxasınca düşmərəm. Mən insandan da çəkinmərəm, ölümdən də. O üzdən yüz ildir, Əzrayıl yanıma uğramır. Qorxuyla ölümü gözləyənlərin, dünyadakı mallarını itirməkdən qorxanların arasında gəzib dolanır. Mənə yetər bu dağların gözəlliyi, toyuqların yumurtası, özüm bişirdiyim çörək, quyumun suyu, uçan quşlarım. Bu təmiz havanı içinə çək, gedim bağçadan sənə bibər gətirim. Ye smitinlə. Buralardan keçərkən xatırlayarsan hər keçəndə, – deyərək bağa getdi.

Söhbət uzanıb getdi. Pilot özünü qorxmaz sayarkən, Təhsin kişinin qorxusuz ağlına heyran qalmışdı. Uzun-uzun düşüncələrlə smitinin küncütünü çeynəməyə başladı.

*Hazırladı:* **Nazilə Gültac**

